**Yalçın N.** Yaş üstünə yaş gəlsə də, heç vaxt qocalmayacaq : şəhid baş leytenant Səid Rəşidzadənin anadan olmasından 35 il ötür // 525-ci qəzet. - 2025. - 28 yanvar. - **№ 15**. - S. 11.

**Qəribədir, insanlar sağ olanda doğum günləri hamıdan çox onun özü üçün əlamətdar olur. Dünyadan köçəndən sonra isə yaş üstünə gələn yaş, hər ötən il, təqvim dəyişikliyi onun cismani varlığının fövqündə olur. Yalnız doğmaları köks ötürərək xatirələrə üz tuturlar.**

Vətənin xatirə dəftərinə yazılan şəxslər isə, bütöv xalqın köksündə yaşaya bilir, şəhid baş leytenant Səid Rəşidzadə kimi...

Müharibənin 5, Səidin 35 illiyi 2025-ə təsadüf edir. Səkkiz ay sonra o böyük tarixin 5-ci ildönümüdür. Amma bu ötən 5 ildə nə o itkilərin ağrısı, nə də o Zəfərin sevinci korşalıb. Səid və onun timsalında bütün şəhidlər də həmin ağrı və sevinc kimi yaşlanmayıblar.

Səid Rəşidzadə şəhid olandan sonra onun döyüş yoldaşları, ailəsi, dostları ilə həmsöhbət oldum. Hətta Səidin 100 yaşlı babası, İkinci Dünya müharibəsinin iştirakçısı Rəşid kişi ilə danışdım. Hətta dəfn olunduğu Füzulinin Babı kəndinə də getdik, qohumlarını gördüm, xatirələrini eşitdim... Hətta təhsil aldığı 207 saylı məktəbdə barelyefinin açılışında müəllimlərinin Səid haqqında fikirlərini də eşitdim. 5 il ərzində bu söhbətlərin fonunda aydın şəxsiyyət tablosu gözümdə canlandı, Səid barədə fikirlərim tamam formalaşdı və belə həmyerlimə görə qürur duydum... Doğum günündə Səidlə bağlı bir neçə məqamı xatırlamaq yerinə düşər.

Səid Nofəl oğlu Rəşidzadə 1990-cı il yanvarın 28-də Füzuli rayonunun Horadiz qəsəbəsində anadan olub. 1996-2007-ci illərdə Nərimanov rayonu S.Yolçuyev adına 207 saylı tam orta məktəbdə təhsil alıb. 2007-2011-ci illərdə Heydər Əliyev adına Ali Hərbi məktəbdə ali təhsilə yiyələnib. O, 2011-ci ildən etibarən Azərbaycan Silahlı Qüvvələri sıralarında xidmət edib.

Səid Rəşidzadə 2016-cı il Aprel döyüşlərində Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun rəhbərliyi altında döyüşüb. Şahidlərin dediyinə görə, Polad Həşimovun şəhid olması xəbəri Səid Rəşidzadəni bərk sarsıdıb. O, bir neçə il əvvəl ordu sıralarından tərxis olunsa da, könüllü olaraq 2020-ci il sentyabrın 27-si döyüşlərə yollanıb.

2020-ci il oktyabrın 11-də Hadrutda Şişqaya yüksəkliyinə bayraq sancarkən şəhid olub. Səid Rəşidzadə göstərdiyi qəhrəmanlığa görə, ölümündən sonra Prezident İlham Əliyevin sərəncamına əsasən "İgidliyə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Hələ Səid Rəşidzadə yenicə şəhid olduğu vaxtlarda döyüşdüyü taborun komandiri, mayor Hacı Rəhimovla həmsöhbət olmuşdum. Səid barədə çox hərarətlə danışırdı:

"Mən onların tabor komandiri idim. Səid müharibənin 5-ci günündən bizimlə birlikdə oldu. Mənə deyəndə ki, könüllü gəlmişəm, Vətənimizin azadlığı uğrunda vuruşmaq istəyirəm, o andan bildim ki, Səid mərd, cəsur bir gəncdir. Döyüş tapşırıqlarını yerinə yetirərkən, demək olar ki, Səidlə bir yerdə olduq. Səid və onun dostları döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirən insanlar idi. Səid heç nədən qorxmayan, çəkinməyən bir gənc idi. Neçə dəfə ona xəbərdarlıq etmişdim ki, ehtiyatlı olsun. Həmişə mənə deyirdi ki, komandir, Vətən sağ olsun, borcumuzdur, borcumuzu yerinə yetiririk. Səidlə Hadrut istiqamətində yüksəklikləri təmizləyə-təmizləyə irəliləmişik. Orada düşmənin bir neçə postu qurulmuşdu ki, həmin postlardan düşmən bizim qoşunların hərəkətini görürdü. O yüksəkliklər təmizlənməsəydi, Hadruta giriş mümkün deyildi. O yüksəklikləri təmizləyərkən böyük bir qarşıdurma oldu. Səid düşmənin bayrağını endirmək istəyəndə snayper gülləsinə tuş gəldi. Biz Səidin qisasını aldıq. Orada dalğalanan üçrəngli bayrağımızın üzərinə Səidin adı yazılıb. Onun döyüş yoldaşları mənim rəhbərliyimlə bayrağa Səidin adını yazdılar və aldığımız postdan asdılar. Allah şəhidlərimizə rəhmət eləsin. Onların qanı bahasına biz torpaqlarımızı azad etdik. Allah Səidə qəni-qəni rəhmət eləsin".

Bu 5 ildə heyrət etdiyimiz digər vacib məsələ Səidin atası Nofəl Qasımovun əzmi, dözümü oldu. Dəfələrlə ən kövək məqamlardan danışmışıq, bir dəfə də olsun, səsindəki şövq azalmayıb. Səidin məzarı üzərindəki söhbətimizdən: “Bilirsən, mən Səidə deməmişdim ki, müharibəyə get, o özü bu yolu seçdi. Evdə dayana bilmirdi, yerə-göyə sığmırdı. Mənlə dava edirdi ki, sən komissarlığa demisən Səidi aparmayın. Günün birində evə gələndə gördüm hazırlaşıb Füzuliyə gedir, sağollaşdıq... Füzulidə qohum-əqrəba ilə görüşüb, deyib-gülüb. Səhəri gün komissarlığa gedib. Özü sənədləşmə işini həll edib, füzulili cavanlarla birlikdə yola düşüblər... Mən Səidi heç nəyə məcbur etmirdim. O, gözünü açandan mənim mübarizə yolumu görmüşdü, özü də bu ruhda böyümüşdü. 1990-cı illərdə, döyüşlərin qızğın vaxtlarında Səidin 3 yaşı vardı, onu bir neçə dəfə özümlə səngərə də aparmışdım. Səidin içində Vətənin qisası hissi vardı, o qisasın dalınca getmişdi Səid. Səidin şəhid olduğu yerə - Şişqayaya biz 1990-cı illərdə üç dəfə hücum eləmişdik, amma ala bilməmişdik. Mən ömrü boyu Səidin Azərbaycan bayrağı sancarkən şəhid olduğu o yüksəkliyin həsrətini çəkmişəm. Mənə qismət olmadı, amma Səid Şişqayaya gedə bildi”.

İndi bunları yazdıqca düşünürəm; illər keçəcək, Səidin anadan olmasından 45, 55, 65... illər keçəcək. Amma o, əbədi qara saçlı, cavan, qamətli olacaq, yaş üstünə yaş gəlsə də, heç vaxt qocalmayacaq.

Addım-addım alınan vətənin ilbəil tarixə çevrilən canlı şahidlərindən biri kimi Səid Rəşidzadəni doğum günündə sevgi və ehtiramla yad edirik...